25
YAPONİYA-AZƏRBAYCAN
DİPLOMATİK MÜNASİBƏTLƏRİ

# Yaponiya- Azərbaycan münasibətləri 2017






Yaponiyanın Azərbaycan
Respublikasındakı Səfirliyi

# *Səfirin salamlama nitqi*



Yaponiya və Azərbaycan Respublikası 2017-ci ildə diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünü qeyd etdi.
Avropa və Asiyanı birləşdirən geosiyasi dəhlizdə yerləşməklə, zəngin neft və təbii qaz istehsalı ölkəsi olan Azərbaycan, təbii ehtiyatlar üzrə xarici ölkələrdən asılı sənaye ölkəsi olaraq Yaponiya üçün çox vacib tərəfdaş olub, Yaponiya hökuməti, eləcə də Bakıdakı Yaponiya səfirliyi olaraq iki ölkə arasındakı münasibətlərin inkişafı üçün günbəgün çalışmaqda davam edirik.

2017-ci ilə nəzər salsaq qeyd edə bilərik ki, fevral ayında Bakı şəhərində Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin 9-cu birgə iclası təşkil edilmiş, hər iki ölkənin iqtisadiyyat sahəsində fəaliyyət göstərən əlaqəli şəxsləri iqtisadi mübadilələrin inkişafı üçün fəal şəkildə müzakirələr aparmışlar. Bundan başqa, sözügedən iclasda iştirak etmək üçün Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye üzrə Dövlət Naziri cənab Yoşifumi Matsumura Bakıya səfər etmiş, eləcə də, bundan sonra sentyabr ayında Yaponiyanın Xarici İşlər Nazirliyinin Parlament işləri üzrə Nazir müavini cənab Manabu Horii Bakıya səfər etmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev başda olmaqla, vacib hökumət rəsmiləri ilə yüksək səviyyəli siyasi dialoqu dərinləşdirmişdirlər.

İnkişafa yardım da Yaponiyanın xüsusilə böyük önəm verdiyi sahələrdən olmaqla, Azərbaycan müstəqillik əldə etdiyindən bəri, dövlət quruculuğu və iqtisadi inkişafı dəstəkləmək üçün güzəştli kreditlər, qrant yardımları, texniki əməkdaşlıq, "Ot Kökləri və İnsan Təhlükəsizliyi" Qrant Proqramları və s. kimi geniş sahələrdə əməkdaşlıq həyata keçirməkdədir və 2017-ci ildə Ot kökləri və Mədəniyyət Ot kökləri qrant proqramları çərçivəsində rayonlarda tibb müəssisələri, infrastrukturun yaxşılaşdırılması və s. üzrə 12 layihə həyata keçirilmişdir.

Mədəniyyət mübadiləsi sahəsində isə, Azərbaycanda olan hər kəsə ölkəmizi, eləcə də mədəniyyətimizi tanıtmaq üçün səfirliyimiz Bakı, Gəncə, Şəki, həmçinin Şizuoka prefekturasının İto şəhəri ilə dostluq mübadiləsi həyata keçirən İsmayıllı rayonunda da ənənəvi yapon musiqisi və s. sahələrdə yapon mədəniyyətini təbliğ edən tədbirlər həyata keçirmişdir. Bundan başqa, bu il də bir çox istedadlı Azərbaycanlı müxtəlif təhsil və təlim proqramları üzrə Yaponiyaya səfər etmişlər.

Beləliklə, indiyə qədər iki ölkənin bir çox əlaqəli şəxslərinin səyləri ilə qurulan bugünkü Yaponiya-Azərbaycan arasındakı gözəl münasibətləri bundan sonra geniş şəkildə daha da möhkəmləndirib inkişaf etdirmək üçün var gücümü əsirgəməyəcəm.

**Yaponiyanın Azərbaycan Respublikasındakı**
**Fövqəladə və Səlahiyyətli Səfiri**
**Teruyuki Katori**

25
YAPONİYA-AZƏRBAYCAN
DİPLOMATİK MÜNASİBƏTLƏRİ

*Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyində
Yaponiya-Azərbaycan diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünə hazırlanan loqotip

# *Yaponiya-Azərbaycan münasibətlərinin 25 illik addımları*

2017-ci il Yaponiya-Azərbaycan diplomatik münasibətlərinin əsasının qoyulmasının 25-ci ildönümünə təsadüf etmişdir.

## 25 illik diplomatik münasibətlər

| | |
|---|---|
| 1992-ci il, 7 sentyabr | Diplomatik münasibətlərin qurulması |
| 1998-ci il, fevral | Zati-aliləri, Prezident c-b Heydər Əliyevin Yaponiyaya rəsmi işgüzar səfəri |
| 2000-ci il, 21 yanvar | Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyinin açılması |
| 2005-ci il, 12 okytabr | Azərbaycan Respublikasının Yaponiyadakı Səfirliyinin açılması |
| 2006-cı il, mart | Zati-aliləri, Prezident c-b İlham Əliyevin Yaponiyaya rəsmi işgüzar səfəri |
| 2013-cü il, noyabr | İto şəhəri ilə İsmayıllı rayonu arasında dostluq mübadiləsi haqqında saziş (İki ölkə arasındakı münasibətlərdə ilk dəfə) |
| 2017-ci il, 7 sentyabr | Diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü |



*Yaponiyanın keçmiş baş naziri cənab Koizumi Cuniçiro ilə Prezident cənab İlham Əliyevin görüşü*

# İqtisadi və İqtisadi əməkdaşlıq münasibətlərinin 25 illik tarixi

**Əsas hadisələr**

| | |
|---|---|
| 1996-cı il | «ITOCHU» Oil Exploration Ink. şirkəti tərəfindən «Azəri-Çıraq- Günəşli» neft yataqlarına maraq yaranması |
| 1999-cu il | Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin 1-ci birgə iclası (Məkan: Tokio) |
| 2003-cü il | «INPEX Group» şirkətlərinin «Azəri-Çıraq-Günəşli» neft yataqlarına maraq göstərməsi |
| 2003-cü il, noyabr | "Şimal 1" DRES layihəsinin tikintisinin başa çatması (Güzəştli Kredit Layihəsi) |
| 2005-ci il, may | «Şimal buxar-qaz elektrik stansiyası layihəsi (ikinci blok)» üzrə Kredit sazişinin imzalanması |
| 2009-cu il, iyun | Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi üzrə Kredit sazişinin imzalanması |
| 2017-ci il, fevral | Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin 9-cu birgə iclası (Məkan: Bakı) |
| 2017-ci il, sentyabr | «Azəri-Çıraq-Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin 25 il müddətinə uzadılması |





# Mədəniyyət və təhsil sahəsində münasibətlərin 25 illik tarixi

"Kosugi Zohen Co.LTD" şirkəti tərəfindən İsmayıllı rayonu (2009-cu il) və Xətai rayonunda yerləşən Heydər Əliyev parkında (2015-ci il) yapon bağı salınmışdır.




# *Yaponiya və Azərbaycan arasında siyasi münasibətlər*

## 1. Rəsmi səfərlər

2017-ci ildə rəsmi səfərlərin sayı: Yaponiyadan Azərbaycana 2 səfər və Azərbaycandan Yaponiyaya 2 səfər.

### (1) Yaponiyadan Azərbaycana olan rəsmi səfərlər

• ***Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye üzrə Dövlət Naziri Matsumura Yoşifuminin başçılıq etdiyi nümayəndə heyəti*** （***22-24 fevral***）

Bakıda keçirilən Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin iclasında iştirak üçün Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye üzrə Dövlət Naziri Matsumura Yoşifumi Azərbaycana səfər etmişdir. Prezident cənab İlham Əliyev və Baş Nazirin müavini cənab Abid Şərifov ilə nəzakət görüşü keçirilmişdir. İqtisadi Komitənin iclasında Yaponiya tərəfindən Yaponiya-Azərbaycan İqtisadi komitəsinin həmsədri, İtoçu korporasiyasının icraçı vitse-prezidenti Yoiçi Kobayaşidən başqa 50-dən artıq şəxs iştirak etmiş, Azərbaycan-Yaponiya İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri (Baş nazirin müavini) cənab Abid Şərifov, əlaqəli nazirliklərin nazir müavinləri iştirak etmiş, energetika, tibb, logistika sahələrində gələcək əməkdaşlıq üzrə danışıqlar aparmışdılar.





•***Yaponiyanın Xarici İşlər Nazirliyinin Parlament işləri üzrə Nazir müavini Manabu Horiinin başçılıq etdiyi nümayəndə heyəti*** （***14-15 sentyabr***）

Nümayəndə heyəti Prezident cənab İlham Əliyev, Birinci Vitse-prezident xanım Mehriban Əliyeva, Baş Nazirin müavini cənab Abid Şərifov, Gənclər və İdman Naziri cənab Azad Rəhimov ilə nəzakət görüşü keçirmiş, Xarici İşlər Nazirinin müavini cənab Xələf Xələfov ilə görüşdə olmuşdur. Manabu Horii "Azəri-Çıraq-Günəşli" yatağının dərinliklərində yerləşən hissənin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması mərasimində iştirak etmiş, yapon şirkətlərinin də iştirak etdiyi bu sazişin müddətinin uzadılmasının Yaponiya-Azərbaycan diplomatik münasibətlərinin qurulmasının 25-ci ildönümünə təsadüf etməsinin çox sevindirici hal olduğunu vurğulamışdır.





## (2) Azərbaycandan Yaponiyaya olan rəsmi səfərlər

• **Maliyyə naziri cənab Samir Şərifovun səfəri (4-7 may)**

Yokohamada keçirilmiş Asiya İnkişaf Bankının (AİB) İdarə Şurasının illik iclasında iştirak üçün Azərbaycan Respublikası Maliyyə naziri cənab Samir Şərifov Yaponiyaya səfər etmişdir. Səfər zamanı Baş Nazir Müavini, Maliyyə Naziri cənab Taro Aso ilə də görüş keçirilmişdir.




• **Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri cənab Muxtar Babayevin Yaponiya səfəri (25 oktyabr)**

Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupun sədri cənab Muxtar Babayev SOCAR-ın vitse-prezidenti cənab Elşad Nəsirov ilə birlikdə Yaponiyaya səfər etmiş, Yaponiya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupun Yaponiya üzrə həmsədri cənab Akira Amari ilə görüş keçirmişlər.



## 2. Siyasi Məsləhətləşmələr (Müzakirələr)

Noyabrın 22-də Tokioda Yaponiya Xarici İşlər Nazirliyinin Avropa məsələləri bürosunun baş direktorunun müavini, Mərkəzi Asiya, Cənubi Qafqaz və GUAM üzrə xüsusi nümayəndə, səfir Toşihiro Aiki ilə Azərbaycan Respublikası xarici işlər nazirinin müavini cənab Xələf Xələfov arasında siyasi məsləhətləşmələr aparılmış və iki ölkə arasındakı münasibətlər, ərazi problemləri, eləcə də beynəlxalq arenadakı əməkdaşlıq kimi məsələlər müzakirə edilmişdir.

## 3. Rayon və şəhərlərarası mübadilələr

### (1) Komatsu şəhərinin merinin Mingəçevir və Bakı şəhəri Xətai rayonuna səfəri

Oktyabr ayında Yaponiyanın Komatsu şəhərinin meri cənab Şinji Vada Komatsu şəhər şurasının sədri cənab Toşikazu Umedanın başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycanda səfərdə olmuşdur.  Səfər çərçivəsində AR Prezident Administrasiyasının təşkil etdiyi şam yeməyində olmuş, Gənclər və İdman naziri, Mingəçevir şəhər icra başçısı, Xətai rayon icra başçısı,  Bakı Dövlət Universitetinin rektoru ilə görüşlər keçirilmiş, şəhərlərarası və universitetlərarası mübadilənin gələcək perspektivləri barədə danışıqlar aparılmışdır. Eyni zamanda, qonaqlar Xətai rayonu ərazisində yerləşən Yapon bağı daxil olmaqla, hər iki şəhərin görməli yerlərini gəzmişlər.







### (2) Şizuoka prefekturasının İto şəhəri ilə İsmayıllı rayonunun gəncləri arasında mübadilə

Şizuoka prefekturasının İto şəhəri ilə İsmayıllı rayonu arasında 2013-cü ilin noyabr ayında qarşılıqlı dostluq mübadiləsi haqqında saziş imzalanmışdır. Nəticə olaraq, hər il «İto könüllülər birliyi» başda olmaqla bir neçə şagird qısamüddətli mübadilə proqramında iştirak edir. Bundan sonra da iki ölkə arasında şəhərlərarası mübadilələrin daha da artmasını arzu edirik.  (Şəkildə mübadilə proqramı çərçivəsində Bakıda Yaponiya səfirliyində qonaq olmuş 2 şagird və digər əlaqəli şəxslər təsvir olunmuşdur).



# «Ot Kökləri və İnsan Təhlükəsizliyi» Qrant Yardımı Proqramı üzrə layihələr

## "Ağcabədi rayonunun 9 kəndində artezian quyularının bərpası" layihəsi

Layihənin əsas məqsədi Ağcabədi rayonunun suvarma üçün nəzərdə tutulan artezian quyularının bərpasıdır. Layihənin icrası nəticəsində Ağcabədi rayonunun 9 kəndinin 470 hektarlıq xam torpaqlarının məhsuldarlığı artmışdır.

*Açılış mərasiminin keçirilmə tarixi: 15 Avqust, 2017-ci il*
*Qrantın məbləği: 82 min 359 ABŞ dolları*





## "Qusar rayonunun Hil qəsəbəsində su təchizatı sisteminin tikintisi" layihəsi

Qusar rayonunun Hil qəsəbəsinin sakinlərini içməli su ilə təmin etmək məqsədilə, dağlarda yerləşən mənbədən su təchizatı sistemi təkmilləşdirilərək su bulaqları təchiz olunmuşdur. Bununla, yerli sakinlərin içməli suyu almağına ehtiyac qalmamış və həyat şəraitləri yaxşılaşmışdır.

*Açılış mərasiminin keçirilmə tarixi: 8 Avqust, 2017-ci il*
*Qrantın məbləği:83 min 320 ABŞ dolları*





## “Şamaxı rayonunun Quşçu kəndində su təchizatı sisteminin təkmilləşdirilməsi” layihəsi

Şamaxı rayonunun Quşçu kəndində artezian quyusu qazaraq, su təchizatı sisteminin təkmilləşdirilməsilə, yerli kənd sakinlərinin içməli suya olan ehtiyaclarının ödənilməsi təmin olunmuşdur.

*Açılış mərasiminin keçirilmə tarixi: 31 İyul, 2017-ci il*
*Qrantın məbləği: 82 min 930 ABŞ dolları*





## “Ağsu rayonunun Qəşəd kəndində su təchizatı sisteminin təkmilləşdirilməsi” layihəsi

Ağsu rayonunun Qəşəd kəndinin yerli sakinlərini içməli su ilə təmin etmək məqsədilə, layihə çərçivəsində su təchizatı sistemi təkmilləşdirilmişdir. Layihənin icrası nəticəsində yerli sakinlər suyun alınmasına sərf edilən xərclərdən azad olunmuş və yaşayış səviyyələri artmışdır.

*Açılış mərasiminin keçirilmə tarixi: 29 İyun, 2017-ci il*
*Qrantın məbləği:82 min 747 ABŞ dolları*





## "Zaqatala rayonunun Aşağı Tala kəndində tibb məntəqəsinin tikintisi" layihəsi

Layihənin əsas məqsədi Zaqatala rayonunun Aşağı Tala kəndində yeni tibb məntəqəsi tikmək və yerli sakinlərin ilkin tibbi yardım xidmətlərinin səviyyəsini yaxşılaşdırmaqdır. Layihənin icrası nəticəsində 7,000 kənd sakini müasir standartlara cavab verən xidmətlərdən yararlana biləcəkdir.

*Açılış mərasiminin keçirilmə tarixi: 23 Avqust, 2017-ci il*
*Qrantın məbləği: 83 min 197 ABŞ dolları*





# «Mədəniyyət üzrə Ot Kökləri və İnsan Təhlükəsizliyi» Qrant Yardımı Proqramı üzrə layihə

## "Bakı Dövlət Universitetinin Yapon dili şöbəsinin təkmilləşdirilməsi" layihəsi

Layihənin əsas məqsədi Bakı Dövlət Universitetinin yapon dili şöbəsinin köhnəlmiş sinif otağını təmir etmək və lazımı tədris avadanlıqları ilə təchiz etməkdir.
Layihənin icrası nəticəsində tədris mühitinin yaxşılaşdırılması və müasir tədris mühitində tələbələrin davamiyyətinin artması gözlənilir.

*Açılış mərasiminin keçirilmə tarixi: 19 Sentyabr, 2017-ci il*
*Qrantın məbləği: 77 min 60 ABŞ dolları*





# *Texniki əməkdaşlıq*

**“INPEX” şirkətində təlimçilər üçün qəbul tədbirləri**

Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənayə Nazirliyinin əməkdaşlığı ilə 2016-cı ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) gənc mütəxəssisləri dəvət olunaraq “INPEX” şirkətində 3 aylıq təlim kurslarında iştirak edirlər. Sözügedən kurslarda Vaseda Universitetinin professoru cənab Kuriharanın rəhbərliyi altında neft hasilatının texnologiyası haqqında biliklər tədris olunur.





**“Fuji Megane” şirkətinin görmə qabiliyyətinin müayinəsi üzrə yardım missiyası**

“Fuji Megane” Azərbaycanda Dağlıq Qarabağdan olan məcburi köçkünlər üçün görmə qabiliyyətinin müayinəsi yardımını gerçəkləşdirir. Bu il Mingəçevir, Şəki və Bakı şəhərlərində ümumi olaraq 3000 nəfərdən çox əhalinin göz müayinəsi keçirilmiş və 2800 ədəd eynək paylanılmışdır.







**“Yaponiyanın Kiçik və Orta miqyaslı şirkətlərinin məhsullarının təminatı” (Kənd Təsərrüfatı)**

“Yaponiyanın Kiçik və Orta miqyaslı şirkətlərinin məhsullarının təminatı” layihəsi çərçivəsində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə kənd təsərrüfatı üzrə tədqiqat avadanlıqları təqdim edilmişdir. Yaponiya Azərbaycan Hökümətinin təşviq etdiyi kənd təsərrüfatı sahəsi üzrə istehsalın təkmilləşdirilməsi üçün əməkdaşlıq etməkdədir.







# *Mədəni-ictimai əlaqələr*

2017-ci ildə azərbaycanlıları yapon mədəniyyəti ilə yaxından tanış etmək məqsədi ilə Yaponiyanın geniş şəkildə təqdimatı ilə bağlı müxtəlif tədbirlər həyata keçirilmişdir. Gələcəkdə də hər iki millətin bir-birini daha dərindən anlaması üçün mədəni və ictimai tədbirlər keçirməyə davam edəcəyik.
Səfirliyimizin əlaqəli olduğu mədəniyyət tədbirləri haqqında məlumat səfirliyin rəsmi internet səhifəsi və ya Facebook səhifəsində yerləşdirilir.
HP: http://www.az.emb-japan.go.jp/itprtop_ja/index.html
Facebook: https://www.facebook.com/JapanEmb.Azerbaijan/

## Mədəniyyət tədbirləri
## (Yaponiya səfirliyinin təşkilatçılığı ilə, digər qurumlarla birgə əməkdaşlığı və ya digər qurumların dəstəyi ilə keçirilən tədbirlər)

• **Bakı yapon filmləri festivalı**

*Keçirildiyi tarix:* 27-29 yanvar
*Məkan:* Landmark Kinoklub
*Məzmun:* Yaponiya Fondu ilə birgə əməkdaşlıqla Azərbaycan dilində alt yazılı 5 yapon filmi nümayiş olunmuşdur.
*Nümayiş olunan filmlər:* «Sən yaxşı uşaqsan», «Çevrəmizdəkilər», «Məktub», «Pekorosun anası ilə görüş» və «Kaitan şəhərinin əhvalatları»






• **Gəncə şəhəri cüdo üzrə 2-ci "Yaponiya Səfiri" kubok yarışı və cüdo təlimi**

*Keçirildiyi tarix:* 8 fevral
*Məkan:* "Təhsil" Respublika İdman Mərkəzinin Gəncə filialının cüdo idman zalı
*Məzmun:* Yaponiyanın "Mədəniyyət üzrə Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində təmir olunmuş idman mərkəzində Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin əməkdaşlığı ilə cüdo yarışı və cüdo öyrənən uşaqlar üçün Yaponiya səfirliyinin əməkdaşları (qara kəmər sahibləri) tərəfindən cüdo üzrə təlim keçirilmişdir.





• **Oriqami dərsi**

*Keçirildiyi tarix:* 19 iyun
*Məkan:* Səfirliyin Mədəniyyət və Məlumat mərkəzi
*Məzmun:* Oriqami üzrə mütəxəssis dəvət olunaraq, azərbaycanlılar üçün oriqami dərsi təşkil olunmuşdur.





• **«Va-Liqa» Ənənəvi Yapon musiqi qrupunun Şəki «İpək Yolu» Beynəlxalq Musiqi Festivalında və Bakıda yerləşən Heydər Əliyev parkında konserti**

*Keçirildiyi tarix:* 28-30 iyun
*Məkan:* Şəkidə konsert @ Marxal Resort & Spa otelinin amfiteatrı, Bakıda konsert @Xətai Rayonu, Heydər Əliyev parkı (Yapon bağının yanı) və Bakıda təlim - 46 saylı məktəbdənkənar Tərbiyə İşi Mərkəzi
*Məzmun:* Azərbaycan Bəstəkarlar İttifaqı, Şəki Şəhər İcra Hakimiyyəti, Xətai Rayon İcra Hakimiyyəti, JTI, 46 saylı məktəbdənkənar Tərbiyə İşi Mərkəzinin dəstəyi ilə Yaponiyanın ənənəvi musiqi qrupu "Va-Liqa" ansamblının (şamisen, şinobue, vadaiko alətlərində ifa və «şişimai- şir rəqsi» )konsertləri keçirilmişdir. Xətai rayonunda baş tutan konsertdə muğam ifaçıları ilə sintez ifa da olmuşdur.





• **16-ci Yapon Dili Natiqlik Müsabiqəsi**

*Keçirildiyi tarix:* 30 sentyabr
*Məkan:* Bakı Dövlət Universiteti
*Məzmun:* Səfirliyimizlə Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı, Yaponiya Fondu və bir sıra yapon şirkətlərinin dəstəyi ilə Yapon Dili Natiqlik Müsabiqəsi təşkil edilmişdir. Müsabiqənin qalibi Azərbaycanı Moskva Yapon Dili Natiqlik Müsabiqəsində təmsil edərək 3-cü yerə sahib olmuşdur.




• **«Yapon Brendi Proqramı» çərçivəsində İşıqlandırma dizayneri Daisuke Yanonun təqdimatı**

*Keçirildiyi tarix:* 20-21 oktyabr
*Məkan:* Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Yarat Müasir İncəsənət Mərkəzi, Memarlıq və İncəsənət Universiteti
*Məzmun:* Yaponiya Xarici İşlər Nazirliyinin Yaponiyanın texnologiyasını dünyaya yaymaq məqsədli tədbiri çərçivəsində işıqlandırma dizayneri Daisuke Yano 3 məkanda işıqlandırma texnologiyası ilə bağlı təqdimat keçirmişdir. Eyni zamanda, ənənəvi yapon kağızı olan vaşi və yapon şamından istifadə ilə təlim proqramı da təqdim olunmuşdur.
«Yapon Brendi Proqramı» Yaponiya XİN səhifəsində:
http://www.mofa.go.jp/p_pd/pds/page22e_000759.html






• **«Japan Music Project» Qafqaz Turu**

*Keçirildiyi tarix və məkan:* 2 noyabr (Azərbaycan Milli Konservatoriyası) , 3 noyabr (Landmark Oteli, Rotunda Caz Klubu)
*Məzmun:* Yaponiya Mədəniyyət Agentliyinin maliyyə dəstəyi ilə Yaponiyanın ənənəvi musiqi alətlərində (şamisen, şinobue, şakuhaçi) ifa edən qrupun konsertləri keçirilmişdir. İki gün davam edən konsertlərdə muğam ifaçıları ilə birgə sintez ifalar da olmuşdur.






• **Yaponiya İmperatorunun Doğum Günü Ziyafəti**

*Keçirildiyi tarix:* 5 dekabr
*Məkan:* Fairmont Oteli, Nizami Gəncəvi Ziyafət Zalı
*Məzmun:* Yaponiya səfirliyinin təşkilatçılığı və yapon şirkətlərinin dəstəyi ilə ziyafət təşkil olundu. Azərbaycan Milli Konservatoriyanın tələbələri tərəfindən hər iki ölkənin dövlət himnləri səsləndirilmişdir.



• **Yapon milli zərb alətləri konserti**

*Keçirildiyi tarix:* 6 dekabr
*Məkan:* Sumqayıt Dövlət Musiqili Dram Teatrı
*Məzmun:* ISR LEXUS Toyotanın və Sumqayıt Şəhər İcra Hakimiyyətinin əməkdaşlığı ilə yapon milli zərb aləti - *vadaiko* konsertinin keçirilməsi.








## Yaponiya Səfirliyinin təşkilatçılığı ilə keçirilən ictimai tədbirlər

• **Məktəbə səfər**

*Keçirildiyi tarix:* İl ərzində bir neçə dəfə
*Məkan:* Bakı Modern Təhsil Kompleksi, 225 saylı tam orta məktəb
*Məzmun:* İnformativ və təbliğat xarakterli məlumatlardan istifadə edərək ibtidai və orta məktəb şagirdlərinə Yaponiya haqqında məlumat verildi.






• **Yaponiya Səfirliyinin Mədəniyyət və Məlumat Mərkəzində kiçik kitabxananın fəaliyyəti və yapon mədəniyyətinə dair əşyaların icarəyə verilməsi**

*Məzmun:* Yapon mədəniyyətinə və yapon dilinə aid kitab və ya jurnalların və digər əşyaların icarəsi həyata keçirilmişdir. Kitabxanın istifadəsi və əşyaların icarəyə götürülməsi ilə bağlı culture-info@bk.mofa.go.jp elektron ünvanına müraciət edə bilərsiniz.







## Yapon dili tədrisini dəstəkləyən tədbirlər

**• Yapon Dili Danışıq Klubu**

*Məzmun:* Ayda bir dəfə Bakı Yaponlar Cəmiyyətinin birgə əməkdaşlığı ilə yapon dili ixtisası üzrə tədris alan tələbələr üçün Yaponiya səfirliyinin 5-ci mərtəbəsində yerləşən Mədəniyyət və Məlumat Mərkəzində yapon dilində danışıq saatları təşkil olunmuşdur.




**• Yapon Dili Bacarıq İmtahanı**

*Məzmun:* Yaponiya Fondu və Yaponiya Beynəlxalq Təhsilə Dəstək Assosiasiyası tərəfindən keçirilən yapon dili bacarıq imtahanı, 2017-ci ildə ikinci dəfə (3 dekabr tarixində) Bakıda (Bakı Dövlət Universiteti) təşkil edilmişdir. Səfirliyimiz də imtahanın təşkil olunmasında əməkdaşlıq etmişdir.




### Yaponiyada təhsil və qısamüddətli təlim proqramları

*Aşağıda qeyd olunan məlumat keçən ilə təsadüf edir. Növbəti maliyyə ili üçün şərtlər toplusu ilə səfirliyin internet səhifəsindən və Facebook səhifəsindən tanış ola bilərsiniz.

**• Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyinin təhsil proqramları (elmi tətqiqat, bakalavr pilləsi, nikkensei və kyokensei)**

Məzmun: Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyinin dövlət təqaüd proqramı imtahanı. Yaponiya Səfirliyində imtahanın birinci mərhələsinin təşkili.

**(1) Elmi tədqiqat aparan tələbələr (2017-ci ildə Azərbaycandan 3 şəxs bu proqramla təhsil almağa getmişdir)**

*Proqram haqqında:* Universitetin ştatlı və ya ştatsız tələbəsi kimi magistr və ya doktorantura dərəcəsində təhsil ala bilər. Sadəcə elmi-tədqiqat mərhələsi üçün təqaüd müddəti 2 il olub, daha sonra rəsmi magistr və ya doktorantura pilləsinə də irəliləmək mümkündür. Magistr və doktorantura pillələri də müvafiq olaraq 2 və 3 illik təqaüdlə təmin olunur. Bu proqram vasitəsilə Yaponiyaya yollanma aprel və ya sentyabr aylarına təsadüf edir.

*Şərtlər toplusu və imtahanın keçirilmə dövrü:* Qayda olaraq 35 yaşdan aşağı olan şəxslər. 16 illik məktəb təhsilini bitirmiş və yapon dilini öyrənməyə marağı olan şəxslər. İmtahan iyun-avqust aylarında keçirilir (2017-ci ildə iyul ayının ortalarında keçirilmişdir).

*İmtahanın məzmunu:* Sənədlərin yoxlanılması (tədqiqat planı da daxil), yazılı imtahan (yapon və Azərbaycan dillərində), müsahibə (ingilis və ya yapon dilində aparılacaq, seçim mümkündür).

*Yapon dili biliyinə malik olmayan şəxslər həmçinin proqrama müraciət edə bilərlər.

**(2) Bakalavr pilləsi üzrə təhsil** (2017-ci ildə Azərbaycandan 1 nəfər humanitar elmlər üzrə ixtisasla imtahandan keçmişdir)
*Məzmun:* Yaponiya universitetlərinin bakalavr pilləsində 5 illik (1 illik hazırlıq pilləsi və 4 il bakalavr) təhsil. Lakin, tibb, baytarlıq, əczaçılıq, stomatologiya kimi ixtisaslarda təhsil 7 il davam edir. Adətən Yaponiyaya yollanma aprel ayına təsadüf edir.
*Şərtlər toplusu və imtahanın keçirilmə dövrü:* 12 illik məktəbi bitirən (Azərbaycanda təhsil alan tələbələr isə 11 illik) və yapon dilini öyrənməyə maraq göstərən şəxslər.
*İmtahanın keçirildiyi dövr:* iyun-avqust ayları (2017-ci ildə imtahan iyul ayının ortalarına təsadüf etmişdir).
*İmtahanın məzmunu:* Müraciət sənədlərinin yoxlanılması. Yazılı imtahan seçilən ixtisasa uyğun olaraq dəyişir (humanitar elmlər: ingilis dili, yapon dili və riyaziyyat- 3 fənn; təbii elmlər: yapon dili, ingilis dili, riyaziyyatdan əlavə fizika, kimya, biologiya fənnlərindən ikisindən imtahan olmaqla, ümumilikdə 5 fənndən imtahan olur.) Yapon dilindən başqa digər fənlər üzrə imtahan sualları ingilis dilində hazırlanır. Müsahibə seçimə görə ingilis və yaxud yapon dilində aparıla bilər.





**(3) Nikkensei** (Yapon dili və yapon mədəniyyətini tədqiq edən tələbələr üçün proqram. 2017-ci ildə Azərbaycandan 1 nəfər bu proqramda iştirak etmişdir).
*Məzmun:* Yaponiya universitetinin fakültəsinə təyin olunub, yapon dili və yapon mədəniyyəti ilə bağlı təhsil almaq. Proqram hər il oktyabr ayından başlayaraq 1 il davam edir.
*Şərtlər toplusu və imtahanın keçirilmə dövrü:* Universitetdə yapon dili və mədəniyyəti ixtisası üzrə təhsil alan tələbə olmalı; yapon dili tədris müddəti ümumilikdə 1 ildən artıq olub, Yaponiyada universitetdə təhsil ala biləcək şəxslər. İmtahan təxmini olaraq yanvar-fevral aylarında keçirilir（2017-ci il ildə fevralın sonuna təsadüf etmişdir).
*İmtahanın məzmunu:* Sənədlərin yoxlanılması, yapon dili üzrə yazılı imtahan və yapon dilində müsahibə.





(4) **Kyokensei** "Gənc müəllimlər üçün təlim təqaüd proqramı"
(*İndiyədək Azərbaycandan bu proqram üzrə keçən olmayıb)
*Məzmun:* Müəllimlərə Yaponiya universitetlərində təhsilin idarə olunması, tədris metodları, təhsil ixtisası üzrə tədqiqatla bağlı təlimlər keçirilir. Proqram hər il oktyabr ayından başlayaraq 1 il yarım müddət davam edir.
*Şərtlər toplusu və imtahanın keçirilmə dövrü:* Universitet və yaxud müəllimlər üçün nəzərdə tutulmuş peşə məktəbini bitirib, Azərbaycanın ibtidai və orta məktəblərində və ya müəllimlər üçün nəzərdə tutulmuş peşə məktəbində 5 ildən çox təcrübəyə malik olan şəxslər; 35 yaşdan aşağı şəxslər. İmtahanın keçirilmə müddəti yanvar və yaxud fevral ayına təsadüf edir. (2017-ci ildə fevral ayının sonuna təsadüf etmişdi）.
Sənədlərin yoxlanılması (tədqiqat planı da daxildir), yazılı imtahan (yapon dili və ingilis dili) , müsahibə ( ingilis və ya yapon dillərindən birini seçmək olar)
*Yapon dili biliyinə malik olmayan şəxslər həmçinin bu proqrama müraciət edə bilərlər.

• **Yapon dili ixtisası üzrə bacarıqlı tələbələrin Yaponiyada qisamüddətli təlim proqramı** (2017-ci il, 6-20 sentyabr tarixləri arası)

*Proqramın məzmunu:* Yaponiya Fondu tərəfindən təqdim olunan Yaponiyada 15 günlük təlim proqramıdır. Yaponiya və yapon mədəniyyətinə aid mühazirələr, mədəniyyət sahəsində təcrübələr və s.
2017-ci ildə Azərbaycandan 1 nəfər tələbə bu proqramda iştirak etmişdir.
*İmtahan haqqında:* Yaponiya səfirliyində yazılı imtahan (2017-ci il 9 may tarixində keçirilmişdir) və yapon dilində müsahibə
*Müraciət edə bilən şəxslər:* Keçmiş 5 il ərzində davamlı olaraq Yaponiyada 7 gündən çox olmamış şəxslər; Yapon Dili Bacarıq İmtahanında N4 səviyyəsindən daha yüksək nəticə əldə edən şəxslər. Yapon dili müəllimləri proqramda iştirak edə bilməzlər. 18-55 yaş arası şəxslər.





• **MIRAI Proqramı** (2017-ci il 4-11 oktyabr tarixlərində baş tutub)

*Proqramın məzmunu:* Yaponiya Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə avropalı tələbələr üçün nəzərdə tutulmuş proqram. Proqrama Yaponiyanın siyasəti, cəmiyyəti, tarixi, diplomatik əlaqələri haqqında mühazirələrdə iştirak daxildir. Proqramda eyni zamanda təhsil müəssisələrinə ziyarət və yapon mədəniyyəti nümunələri üzrə təlimlər də həyata keçirilir.
2017-ci ildə Azərbaycandan 3 nəfər tələbə bu proqramda iştirak etmişdir.
*İmtahan haqqında:* Əsasən proqramda iştirak məqsədini əks etdirən esse (ingilis dilində) üzrə seçim (2017-ci ildə son müraciət tarixi: 11 avqust) aparılır. Daha sonra, Yaponiya səfirliyində ingilis dilində müsahibə (2017-ci ildə 15 avqust tarixində keçirilmişdir) təşkil olunur.
*Müraciət edə bilən şəxslər:* 20 yaşdan yuxarı olub, Azərbaycanın universitetlərində bakalavr və ya magistr təhsili alan tələbələr (tarix, hüquq, politologiya, iqtisadiyyat, beynəlxalq siyasət, ictimai siyasət, regionşünaslıq, jurnalistika və bənzər ixtisaslar üzrə təhsil alan tələbələr). Qaydaya əsasən, 6 aydan çox Yaponiyada yaşamamış şəxslər. İngilis dilində fikir mübadiləsi apara biləcək şəxslər.








Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi
Ünvan: Hyatt Binası III, 6-cı mərtəbə,
İzmir küç. 1033, Bakı, Azərbaycan
Tel.: 012 490 7818/19
Faks: 012 490 7817/20
Web : www.az.emb-japan.go.jp
Facebook: https://www.facebook.com/JapanEmb.Azerbaijan/
E-poçt: info@bk.mofa.go.jp